Öncə mərasim iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar.

Nazir rayon rəhbərliyini, təhsil ocağının pedaqoji və şagird kollektivini təbrik edib, rayonda həyata keçirilən bütün bu işlərin ölkə başçısı cənab İlham Əliyevin Azərbaycanda təhsilə gösərdiyi diqqət və qayğı sayəsində mümkün olduğunu nəzərə çatdırıb.

Həmin gün təhsil naziri rayonun Mərkəzi Elektron Kitabxanasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümünə həsr edilmiş «Heydər Əliyev- müasir Azərbaycan dövlətinin banisidir» mövzusunda elmi-praktik konfransda və Heydər Əliyev adına sarayda təhsil işçilərinin müşavirəsində iştirak edib.

Daha sonra təhsil naziri Misir Mərdanov mərasimdə iştirak edən ölkə ziyalıları ilə birlikdə Heydər Əliyev muzeyində olub və xatirə kitabına ürək sözlərini yazıb.